*MAKS YURBİNİ*

# "Biz sizi bir daha görməyəcəyik, sinyor Matsola"

(xarici novella)

Sandrino Matsola "İnter" klubu yaxınlığındakı Via Dante meydanında və ya Pyatsa del Duomo prospektində gəzişən zaman onun zahiri görkəmində elə bir qeyri-adilik nəzərə çarpmırdı. O, səliqəli geyimi, sadə və təvazökar davranışı ilə adi insanlardan fərqlənmirdi. Solğun bənizli, xırda gözlü bu oğlanın üzündə daim təbəssüm dolaşırdı. Lakin o, topa to-xunan kimi büsbütün dəyişirdi: "Arıq və cansız tələbə" rəqib üçün təhlükə mənbəyinə çevrilirdi. Bunu yalnız idmanın möcüzəsi hesab etmək olardı.

Elenio Errera kimi sərt və tələbkar bir məşqçi məktəbini keçmiş Sandrino yaxşı bilirdi ki, hətta ən istedadlı oyunçu belə konkret nəticə əldə edə bilmirsə, onun komandada qalmasının heç bir əhəmiyyəti yoxdur. Sandro Matsola özünün başlıca vəzifəsini lazımi məqamda cərimə meydançasında və xüsusilə də qapıya yaxın nöqtədə rəqib oyunçusu üçün təhlükə yaratmaqda görürdü. O, bunu tribunadakı tamaşaçılar qarşısında özünü göstərib, zövq almaq xatirinə etmirdi.

"İnter"in incisi sayılan Sandrino Matsola altmışıncı illərdə İtaliya və ümumilikdə Avropa futbolunda əsas yerlərdən birini tuturdu. O, yaşıl meydanda göstərdiyi oyunla azarkeşlərə bolluca sevinc bəxş edirdi.

Futbol fanatı Sandrino atasının əziz xatirəsini daim qəlbində yaşadırdı.

"Atam Valentino Matsola təkrarolunmaz futbolçu idi. İtalyanlar onunla həmişə fəxr ediblər. Özümü onunla müqayisə etməyə cəsarətim çatmır."

Valentino Matsola, həqiqətən də, məşhur futbolçular nəslinin nümayəndəsi idi. O dövrdə təkcə ayaq və başla deyil, çiyinlə də futbol oynayırdılar. 1934 və 1938-ci illəri Vittorio Potsonun rəhbərliyi altında İtaliya yığmasının dünya çempionu olduğu illər və "Torino" klubunun zəfərlər dövrü adlandırmaq olar.

1948-1949-cu illər futbol mövsümünün əvvəlində beynəlxalq yoldaşlıq görüşləri keçirmək üçün Brüsselə gəldiyi zaman artıq beşqat İtaliya çempionu olmuş "Torino" nadir rekord sahibi idi - il ərzində o rəqib qapılarından 125 top keçirmişdi. 1947-1948-ci illər mövsümündə əldə edilmiş bu rekord 15 il dəyişilməz qalmışdı. İtaliyanın məşhur "dəri top ustaları" o zamanlar hamının maraq dairəsində idilər.

Hotelə daxil olduqları dəqiqədən onların hər bir hərəkəti sanki nəzarət altına alınırdı. Futbol ulduzlarına 8 yaşından 15 yaşınadək uşaqlar xüsusi maraq göstərirdilər. Onlar mehmanxananın qapısında dayanmış mehmanxana xidmətçisini o dərəcədə təngə gətirirdilər ki, kişi axırda orada işləməkdən imtina etmişdi. O zaman komandanın qapısını Basiqolupa kimi etibarlı futbolçu qoruyurdu. Bir dəfə qapıçı onbirmetrlik cərimə zərbəsindən buraxdığı qoldan sonra qəzəbindən ot yeməsi ilə Kolomba stadionunda gülüş doğurmuşdu. Mahir qol ustası Qabetto, Avropada güclü müdafiəçilərdən biri hesab olunan Morozo və İtaliya yığmasının digər futbolçuları, ilk növbədə, Valentino Matsola həmişə azarkeşlərin diqqət mərkəzində olublar.

**- Sinyor, avtoqraf verməyiniizi xahiş edirəm, - deyə balaca bir oğlan ona müraciət etdi.**

- Mənim üçün də, - deyə ikinci oğlan da əlavə etdi.

**- Bunları isə bütün sinif yoldaşlarını üçün imzalayın, - üçüncü oğlan acizanə şəkildə yalvar-dı. Valentino heç kəsi incitmədən səbir nümunəsi göstərərək, uşaqların xahişini yerinə yetirdi. Onlardan fransız dilini yaxşı bilən daha cəsarətlisi "Torino"un kapitanına yaxınlaşaraq dedi:**

- Sinyor Matsola, lütfən, bizimlə gedək! Klubumuzda yalnız böyüklərlə məşğul olan məşqçilər işləyirlər. Bizə isə heç kəs kömək etmir. 15-cə dəqiqə bizimlə məşğul olsanız, sizdən çox şey öyrənərik və biz də italyansayağı oynamağa başlayarıq.

- Uşaqlar, siz yaxşı bilirsiniz ki, bu, mümkün deyil. Mən buraya komandam ilə gəlmişəm və ondan ayrılmağa ixtiyarım yoxdur, - deyə Valentino mülayim səslə cavab verdi.

**- Onda icazə alın!**

- Buna heç kim razı olmaz.

**- Axı siz hamıdan güclüsünüz.**

-Sən çox xeyirxah uşaqsan, mənim balam. Əgər futbolçular istədiklərini etsələr, heç bilirsən, nə olar?

Gətirdiyi bütün dəlillərin rədd edildiyini görən oğlanın artıq əli hər şeydən üzülür və o deyir:

**-Hər şey aydındır. Gedək, uşaqlar... Siz yeniyetmələri sevmirsiniz. Əgər sizin oğlunuz olsa idi, bizi yaxşı başa düşərdiniz.**

- Necə, necə? Mən yeniyetmələri sevmirəm? - deyə Valentino hirslənir.

**- Onda sübut edin!**

- Yaxşı! İkicə dəqiqə gözləyin.

Matsola hotelə qayıdıb yoldaşlarına deyir ki, yaxınlıqdakı mağazaya gedir, 16 dəqiqəyə qayıdacaq. Sonra isə küçəyə çıxıb, onu gözləyən pərəstişkarlarına qoşulur.

**- Gedək! Haradadır sizin stadion?**

- Uşaqlar məşhur futbolçunun onların təklifinə razılıq verəcəyinə inana bilmirlər. Hamı birlikdə tramvaya minib 40 dəqiqə yol gedəndən sonra şəhərin o başına - Sen-Jell stadionuna gəlib çatırlar.

... Artıq bir neçə saat idi ki, məşq gedirdi. Valentino isə uşaqlara elə hey ayağı ilə mükəmməl hərəkətlər göstərir və onları başa salırdı:

**- Əgər oyundaşın yaxındadırsa, gərək topu ayağının iç tərəfi ilə ötürəsən. Bax belə. Əgər o, səndən uzaqdadırsa, topu ayağının üst tərəfi ilə vurmalısan.**

Uşaqlar yerbəyerdən ona suallar yağdırırdılar. Valentinonun ətrafına təkcə mehmanxanadan onunla birlikdə gələn uşaqlar deyil, məşhur futbolçunun burada olmasından xəbər tutan digər klubların üzvləri də toplaşmışdılar. Valentino isə uşaqlara müxtəlif vəziyyətlərdən vurulan zər-bələr nümayiş etdirirdi. Penalti seriyası da çox vaxt apardı. Sonra uşaqlardan biri ikitərəfli oyun keçirməyi təklif etdi:

- Bəlkə, oynayaq?

**- Bunu, heç ağlınıza da gətirməyin. Daha gecdir. Baxın, yarım saatdan sonra qaranlıq düşəcək. Bir də, axı məni gözləyirlər.**

- Yarım saat çox, yarım saat az, sizin üçün bunun bir əhəmiyyəti varmı? Axı biz sizi bir daha görməyəcəyik, sinyor Matsola...

Valentino təslim oldu. O, iki komanda təşkil edərək, qüvvələr arasında bərabərlik pozulmasın deyə, gah bu, gah da o biri heyətdə çıxış etdi. Onun göstərdiyi oyun hamını valeh etmişdi. Zənn etmək olardı ki, qısa vaxt ərzində göstərilən texniki fəndlər, vurulan zərbələr pul verib stadiona gələn tamaşaçı üçün deyil, gələcəyin futbol ustaları qarşısında təcrübə dərsi idi. Sanki, hər şey sehirli bir qüvvənin təsiri ilə kiçicik bir orkestrə rəhbərlik edən dirijorun ətrafında birləşmişdi. Adajio, Moderato, Alleqro, Vivaçe... Bu, əsil musiqi festivalını xatırladırdı. Oyun qaranlıq düşəndə başa çatdı və Matsola şagirdləri ilə birlikdə qaranlığa bürünmüş stadionu yaxşı əhval-ruhiyyə ilə tərk etdi. Mehmanxanada isə hamı futbolçudan nigaran qalmışdı; "Görəsən, Matsola harada qaldı?" Kimisi zarafat edir, kimisi düşüncələrə dalırdı. Matsola intizamlı futbolçu hesab edilirdi. Valentino həmişə başqalarına nümunə olurdu. Turində o, məşqlərə hamıdan tez gələr, bildiklərini yoldaşları ilə bölüşərdi. Bəzən isə məşq vaxtının bitməsinə baxmayaraq, meydanda qalıb, yorulmaq bilmədən topla işləyərdi. "Futbolçu da, musiqiçi kimi hər gün saatlarla öz üzərində işləməlidir", - deyə Valentino tez-tez təkrar edərdi. O, stadiondan birbaşa düz evinə qayıdardı, bir sözlə, qüsursuz həyat yaşayardı. Onun qədər intizamlı və məsuliyyətli futbolçu tapmaq çətin idi. Düşdüyü şəraitdən asılı olmayaraq, o, həmişə gülərüz və mehriban insan olaraq qalırdı.

Valentinonun ləngiməsi hamını narahat edirdi. Şam yeməyinin vaxtı keçmişdi. Heç kəsin boğazından tikə keçmirdi. Saat doqquza qalmış klubun prezidenti dözmədi:

**- Polisə zəng vurmaq lazımdır, bəlkə, başına bir iş gəlib?**

- O, sözünü deyib qurtarmamışdı ki, Matsola yeməkxanaya daxil oldu. Hərə bir tərəfdən ona sual və atmacalı sözlər yağdırmağa başladı.

**- Necə keçdi, Valentino, canını onun əlindən qurtara bildin?**

- Biz bilmirdik ki, sənin Brüsseldə rəfiqən var.

**- Sən bizi onunla tanış etməli idin.**

- Hə, Valentino vaxtını boş keçirmir...

Valentino dostlarının sözlərini, əlbəttə, zarafat kimi qəbul edirdi. Buna baxmayaraq, o, gözlənilmədən yoxa çıxmasının səbəbini komanda rəsmilərinə izah etməli idi.

**- Narahat olmayın, - deyə o, əhvalatı danışmağa başladı. Mən qızla görüşdən gəlmirəm. Sadəcə, günün ikinci yarısını uşaqlarla şəhər kənarındakı stadionda keçirmişəm.**

- Necə, siz onlarla futbol oynamısınız? - deyə "Torino"nun prezidenti soruşdu.

**- Əlbəttə.**

- Valentino, sən yaxşı iş görməmisən! Düşüncəsiz hərəkətə yol vermisən, risk etmisən.

**- Siz səhv edirsiniz, cənablar! Bu, ağılsız və əhəmiyyətsiz iş deyil. Uşaqlar çox gözəl tərəf-müqabilidirlər. Onlar hər işi səmimiyyətlə və təmiz niyyətlə görürlər. Onlardan çox şey öyrənmək olar. İnanın mənə, bu, bulaqdan su içməyə bənzəyir. Qəribə də olsa, dərk etməyə başlayırsan ki, futbol, ilk növbədə, təbii oyundur, həm də oyunların dünyada ən gözəlidir. Uşaqlarla futbol oyna-yanda sən onu ibtidai şəkildə-yarandığı formada görürsən.**

- Sizi anlamaq olmur, Valentino! Demək istəyirsiniz ki, bu əhvalatda qazanan yalnız siz oldunuz?

**- Buna şübhə etməyə bilərsiniz.**

Bundan bir neçə həftə sonra 1949-cu il mayın 4-də Portuqaliya səfərindən qələbə ilə qayıdan "Torino" komandasının futbolçuları təyyarə qəzasında faciəli surətdə həlak oldular. Həmin gecə Brüsselin ucqarında 10-12 uşaq italiyalı dostlarını itirdiklərini öyrəndi. Onlar Sen-Jill stadionunda futbol maestrosuna dedikləri sözləri bir daha xatırladılar:

"Yarım saat çox, yarım saat az - sizin üçün bunun əhəmiyyəti varmı? Axı biz sizi bir daha görməyəcəyik, sinyor Matsola..."

**Tərcümə edəni:**
**Həsən TAĞIYEV**